# Su bolluq, firavanlıq, həyat mənbəyidir

Respublikamızda aqrar sahənin inkişafına dövlət qayğısı artdıqca, kənd adamının sosial həyat şəraiti durmadan yüksəlir, onların gün-güzəranı daha da yaxşılaşır. Ölkə əhalisinin bütün təbəqələrini əhatə edən dövlət qayğısı xalq tərəfindən rəğbət və məhəbbətlə qarşılanır.

Bu gün Azərbaycanın elə bir regionu, kənd və qəsəbəsi tapılmaz ki, orada geniş abadlıq-quruculuq tədbirləri görülməsin, insanların daha firavan yaşayışı üçün qayğı göstərilməsin.

Ölkəmizin şimal-qərb qapısı sayılan Balakən də son illər məhz bu qayğının, diqqətin nəticəsində öz simasını dəyişmiş, onun gözəllikləri birə-beş artmışdır. Rayonda müasirliyi ilə göz oxşayan onlarca küçə və prospektlər, müxtəlif təyinatlı sosial obyektlər, geniş, səliqəli park və meydanlar, səhiyyə, mədəniyyət, təhsil obyektləri bu gün Balakənə xüsusi yaraşıq verir.

Son illərə qədər gözdən uzaq, könüldən iraq bir rayon təsiri bağışlayan **Balakəndə həyata keçirilmiş işlər, Dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə baş tutan, olduqca geniş və əhatəli infrastruktur layihələrin icrası** qədim yurdu bölgənin ən yaraşıqlı və abad yaşayış məntəqəsinə çevirmişdir.

Görülən hər bir işdə, həyata keçirilən hər bir tədbirdə hiss olunan yüksək can yanğısı, nümayiş etdirilən zövq, millilik nəinki balakənliləri, eləcə də büra qədəm basan hər bir qonağı valeh etməyə bilmir.

Balakən ölkəmizin aqrar rayonlarından biridir. Dədə-babadan əkinçiliyi, heyvandarlığı və bitkiçiliyi ilə şöhrət qazanan Balakən kəndlisinin ruzisi torpaqan çıxıb. Xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük uzaqgörənliyi ilə işlənib hazırlanmış və uğurla həyata keçirilmiş aqrar islahatların bəhrəsini ölkəmizin bütün kənd adamları kimi Balakən rayonunda çalışan insanlar da lazımınca görürlər.

Göstərilən diqqət, xüsusən, regionların sosial-iqtisadi inkişafına dair qəbul olunmuş Dövlət proqramlarının uğurla icrası halal zəhməti özünə peşə seçmiş kənd adamına qəddini düzəltməyə imkan verdi, məhsul bolluğu, firavanlıq, xoş gün-güzəranı bərqərar etdi.

Bu da bir danılmaz həqiqətdir ki, kəndlinin qazanc, güvənc yeri torpaqdırsa, ona bar verən, həyat gətirən isə sudur. Atalarımız haqlı olaraq demişlər: "Torpaqda izi olmayanın, süfrədə üzü olmaz". Üz ağlığını isə həyat mənbəyi olan susuz təsəvvür etmək qeyri mümkündür.

**Balakən rayonunda fəaliyyət göstərən Suvarma Sistemləri İdarəsi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin qabaqcıl təşkilatlarındandır.** Bunu idarənin rəisi təcrübəli meliorator, ömrünün qırx ildən çoxunu bu sahədə işləyən **Məmməd Xoçberovla söhbətimizdən də hiss etdik.** Rayonda son illərdə meliorasiya və su təsərrüfatı sahəsinə göstərilən dövlət qayğısı iqtisadiyyatın köklü şəkildə dirçəlməsinə, kəndlinin uzun illərdən bəri qarşılaşdığı böyük problemlərin aradan qaldırılmasına kömək etmişdir.

Həmsöhbətimiz Məmməd müəllim son illərdə həyata keçirilən işlərdən danışarkən qeyd etdi ki, Suvarma Sistemləri İdarəsi rayon ərazisində sel sularına qarşı mübarizə tədbirlərini və kənd təsərrüfatı bitkilərini suvarma suyu ilə dayanıqlı təmin etmək vəzifələrini həyata keçirir.

İdarə rayon ərazisindən axan Balakən, Katex və Mazım çayları boyunca 19,3 kilometr uzunluğunda daş-beton bəndlərə və 6823 hektar əkin sahələrinə xidmət göstərir. Fərəhli haldır ki, rayon üçün həyati əhəmiyyət daşıyan daş-beton bəndlərin 10,1 kilometri **"Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri hörmətli Əhməd Əhmədzadənin** gündəlik diqqət və qayğısı sayəsində son illərdə inşa olunmuşdur.

Son iki ildə göstərilən qayğı nəticəsində rayonun Qabaqçöl qəsəbəsi ərazisindəki qəbristanlığın sel suları təhlükəsindən qorunması məqsədilə 230 metr uzunluğunda və 6 metr hündürlüyündə qabion-setka bəndi çəkilmişdir.

Həmçinin yaxın üç il ərzində Qabaqçöl və Şərif kəndi ərazisində 1200 metr uzunluğunda daş-beton bənd tikilərək istifadəyə verilmişdir. Balakən rayonu ərazisindən axan Katex və Balakən çay sistemlərində investisiya hesabına sel sularından mühafizə tədbirlərini həyata keçirmək məqsədilə 500 poqonmet uzunluğunda bənd tikilmişdir ki, bu da kəndlərin təhlükəsizliyini təmin etmişdir.

Yola saldığımız 2014-cü ildə də bu işlər davam etdirilmişdir. Belə ki, dekabr ayının 20-dək Balakən, Katex, Mazım və İnterçay yaşayış sahələrində 930 metr uzunluğunda əsaslı bənd tikilib istifadəyə verilmişdir. Bundan əlavə, çay yataqlarında təmizləmə tədbirlərini mütəmadi olaraq həyata keçirmiş, val vurulması işləri görülmüş, xüsusilə Mazım çay sisteminin Poştbinə kəndinin mühafizəsi üçün çay yataqlarında 2,2 kilometr uzunluğunda məcratəmizləmə işlərini həyata keçirmişdir.



Paralel olaraq Katex, Balakən, Hünbül çaylarında da hər biri 2 və 2,5 kilometr uzunluğunda məcratəmizləmə işi görülmüşdür.

Suvarma Sistemləri İdarəsinin balansında olan 6823 hektar suvarma sahəsinə nümunəvi xidməti həyata keçirmək məqsədilə bütün işlər nəzarətdə saxlanılmışdır. Xidmət göstərdiyimiz sahələrin 2830 hektarı əkin, 2201 hektarı həyətyanı, 1792 hektarı isə çoxilliklər təşkil edir. Göstərilən sahələrin suvarma suyu ilə müntəzəm təmin edilməsi üçün kollektiv var qüvvəsi ilə çalışmış və xoşagəlməz problemlər olmamışdır.

Su kimi olduqca qiymətli sərvətin itkisinə yol verməmək üçün kollektivin səyi nəticəsində il ərzində suvarma kanallarının lildən təmizləmə layiqincə həyata keçirilmiş, təkcə yola saldığımız 2014-cü ildə 27 kilometr uzunluğunda kanal lildən təmizlənmişdir.

Həmsöhbətimiz kollektivin üzvləri arasında formalaşmış işgüzar mühitin bu işlərin görülməsində xüsusi rol oynadığını da ürəkdolusu vurğuladı. Bu gün halal zəhməti ilə ad-san qazanan melioratorlardan İslam İbrahimovun, Süleymanhacı Umarovun, Ramazan Qudaşovun, mexanizatorlardan Abdurahman Çirinqovun, Eyvaz Cinqorovun və başqalarının işləri əsl hörmətə layiqdir.

Məmməd müəllim həyata keçirilən bütün işlərin mayasında göstərilən dövlət dəstəyinin dayandığını xüsusi vurğuladı.

**O, qeyd etdi ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti rəhbərliyinin, şəxsən hörmətli sədrimiz Əhməd Əhmədzadənin diqqət və qayğısı görülən işlərə, həyata keçirilən bütün tədbirlərə gündəlik nəzarəti kollektivin daha böyük uğurlara imza atmasına stimul verir.**

**İlham PƏNAHOV,**
**"Respublika".**